# Strateji hədəflərə doğru inamla irəliləyən ölkə

## Qeyri-neft sektorunun inkişafı, biznes mühitinin yaxşılaşdırılması, xarici investisiyaların cəlb edilməsi ölkənin iqtisadi inkişafını təmin edəcək



**Yola saldığımız 2015-ci ildə dünyada cərəyan edən hadisələr Azərbaycanın siyasi-iqtisadi modelinin necə uğurlu və həyati qabiliyyətli olduğunu göstərdi. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, ölkə iqtisadiyyatında artım tendensiyası dəyişmədi. Bu artım daha çox qeyri-neft sektorunun hesabına təmin edildi. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında son illərdə həyata keçirilən düşünülmüş iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Dünyanı bürüyən maliyyə böhranına baxmayaraq, Azərbaycan iqtisadiyyatı ötən il də uğurlu inkişafı ilə yadda qaldı.**

Son dövrdə dünya iqtisadiyyatında cərəyan edən proseslər bir sıra ölkələri ağır sınaqlara çəkib. Prezident İlham Əliyevin düşünülmüş sosial-iqtisadi inkişaf strategiyası bu proseslərin ölkəmizə təsirini azaltmağa imkan verib. Bütün problemlərə baxmayaraq, Azərbaycan iqtisadiyyatı dayanıqlığını qoruyub saxlayıb. Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında Qanun göstərir ki, cari ildə də real iqtisadi artım proqnozlaşdırılır. Bu artım ölkə iqtisadiyyatının neft amilindən asılılığının getdikcə zəifləməsinin təzahürüdür.

Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığa dövlət dəstəyinin artırılması, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması tədbirləri, təmin edilmiş siyasi və makroiqtisadi sabitlik Azərbaycan iqtisadiyyatının xarici təsirlərə və yuxarıda qeyd olunan risklərə dayanıqlılığını şərtləndirən başlıca amillərdir. Ölkə Prezidenti cənab İlham Əliyev bildirmişdir: "Biz son illər ərzində aparılan islahatlar nəticəsində bu səviyyəyə qalxa bilmişik. Müstəqillik, müstəqil siyasət, milli maraqlar bizim üçün əsas vəzifədir, əsas məsələdir. Biz bundan sonra da Azərbaycanın seçimini qoruyacağıq, bütün təzyiqlərə, bəzi hallarda təxribatlara baxmayaraq, öz yolumuzdan dönməyəcəyik. Sosial-iqtisadi göstəricilərimiz də bir daha təsdiq və sübut edir ki, biz düzgün yoldayıq."

Heç şübhəsiz, ölkədə aparılan iqtisadi islahatlar növbəti illərdə də davam etdiriləcək. Eyni zamanda, qeyri-neft sektorunun inkişafına daha çox diqqət yetiriləcəkdir. Qeyri-neft sektoru hazırda Azərbaycanın ümumi daxili məhsulunda təqribən 70 faiz təşkil edir. Ölkə Prezidenti cənab İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, qarşıdakı illərdə onun həcmi daha çox artırılmalıdır. Şaxələndirmə, qeyri-neft sektorunun inkişafı, biznes mühitinin yaxşılaşdırılması, xarici investisiyaların cəlb edilməsi, süni əngəllərin aradan qaldırılması, inhisarçılığa qarşı mübarizə - bütün bu amillər bizim iqtisadi inkişafımızı təmin edəcək.

2016-cı ilin dövlət büdcəsi son illərin dövlət büdcələri kimi sosial mahiyyət daşıması ilə daha çox diqqət çəkir. Sosial məsələlər əvvəlki illərdə olduğu kimi, bu il də diqqətdə saxlanılacaq. Bütövlükdə 2016-cı ilin dövlət və icmal büdcə layihələri hazırlanarkən Prezident İlham Əliyevin dövlətimizin inkişafı üçün müəyyən etdiyi strateji xəttə və prioritet vəzifələrə uyğun olaraq sosial məsələlərin həllinə, əhalinin yaşayış və məşğulluq səviyyəsinin artırılmasına, ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsinə, regionların və sahibkarlığın inkişafına, digər dövlət əhəmiyyətli məsələlərə dair qəbul olunmuş məqsədli dövlət proqramlarının maliyyələşdirilməsinə xüsusi diqqət yetirilib, tələb olunan məbləğdə vəsait nəzərdə tutulub.

Belə ki, son illərdə olduğu kimi, 2016-cı ildə də iqtisadi artım qeyri-neft sektorunun hesabına təmin ediləcək. Onun ümumi daxili məhsuldakı payının 2014-cü ildə 61 faizdən 2016-cı ildə 71,8 faizə çatacağı proqnozlaşdırılır. Tikinti sektoru nəzərə alınmazsa, qeyri-neft sahəsi 5,3 faiz, qeyri-neft ticari sektorlar isə 7,2 faiz artacaq.

Qeyri-neft sektorunun aparıcı sahələrindən olan aqrar sektor üzrə 2016-cı ildə 5,5 faiz, növbəti 3 ildə orta hesabla 5,2 faiz artım proqnozlaşdırılır. Xidmət sektorunda artımın 2016-cı ildə 4,8 faiz, növbəti üç ildə orta hesabla 5,1 faiz təşkil edəcəyi proqnozlaşdırılır və bu sektorun ümumi daxili məhsulda payının 2014-cü ildəki 33,4 faizdən 2019-cı ildə 40,9 faizə qədər artacağı gözlənilir.

Qeyd edək ki, 2016-cı ilin dövlət büdcəsinin gəlirləri ÜDM-in 25,2%-i olmaqla, mütləq ifadədə 14,566 milyard manat nəzərdə tutulub. Gələn ilin büdcəsi ilə bağlı mühüm məqamlardan biri büdcə gəlirlərində qeyri-neft sektorunun çəkisinin artması və neft amilindən asılılığın azalmasıdır. 2016-cı ilin dövlət büdcəsinin gəlirlərinin 46,5%-i və ya 6,773 milyard manatı qeyri-neft sektoru üzrə daxilolmaların payına düşəcək. 2016-cı ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 6,602 milyard manat daxilolma proqnozlaşdırılır.

Yenicə qədəm qoyduğumuz ildə dövlətimiz ölkənin müdafiə qüdrətinin və milli təhlükəsizliyinin gücləndirilməsini əvvəlki illərdə olduğu kimi, diqqət mərkəzində saxlayacaq. Bu məqsədlər üçün büdcədən lazımi qədər vəsait ayrılması nəzərdə tutulur.

Əminliklə demək olar ki, 2016-cı ildə sosial məsələlərin həlli prioritet məsələ olacaq və eyni zamanda müxtəlif layihələr də həyata keçiriləcək. Ölkədə həm dövlət büdcəsinin hər il uğurlu icrası, həm də ünvanlı şəkildə həyata keçirilən Dövlət Proqramları davamlı və sürətli sosial-iqtisadi inkişafı təmin edib. 2016-cı ilin dövlət büdcəsi respublikamızın iqtisadi gücünün artması, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsi istiqamətində qarşıda duran vəzifələrin həyata keçirilməsinə tam təminat yaradacaq.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***